**ESTABLISHMENT AND ACTIVITY OF NATIONAL AZERBAIJAN HISTORICAL MUSEUM**

***Jabbarova Elnara Oktay***

***Sumary***

The article is about the establishment and activity of National Azerbaijan Historical Museum which this work is important to learn the work on museum history more deeply.

***Rəyçi: t.ü.f.d. Vüsal Baxışov***
***14 sentyabr 2021-ci il tarixli iclasın 01 saylı protokolu***
***Daxil olma tarixi 22 sentyabr 2021-ci il***

**UOT:902.**

# GƏNCƏDƏ ƏNƏNƏVİ SƏNƏTKARLIQ VƏ MEMARLIQ ÜSLUBLARININ TƏDQİQİNDƏ SƏBZİKAR ABİDƏSİNİN ƏHƏMİYYƏTİ

***Həsənov Elnur Lətif oğlu***
***Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsi***
***lnurh273@gmail.com***

**Xülasə:** *Tədqiqat işində Gəncə şəhərinin qədim ənənələrə malik olan yerli sənətkarlıq və memarlıq növlərinin tarixi-etnoqrafik cəhətdən tədqiqində Səbzikar qəbiristanlığının mənbə kimi əhəmiyyəti araşdırılmışdır. Məqalədə çoxsaylı elmi mənbələr, tarixi məxəzlər, arxiv sənədləri əsasında son orta əsrlər dövründə bu qədim şəhərdə daşişləmə və daşyonma, dulusçuluq, həkkaklıq kimi ənənəvi sənətkarlıq sahələrinin, inşaat işinin, həmçinin yerli memarlıq üslublarının səciyyəvi xüsusiyyətlərinin öyrənilməsində qədim qəbirlərin, məzarüstü abidələrin tədqiqinin dəyəri üzə çıxarılmışdır.*

***"Usta olmayanda çətin gedər iş,***
***Ustanı tap, sonra bir işə giriş".***
***Nizami Gəncəvi***

**Açar sözlər:** Azərbaycan, ənənəvi memarlıq, Gəncə, sənətkarlıq, tarixi-etnoqrafik tədqiqat, Səbzikar məzarlığı.

**Ключевые слова:** Азербайджан, традиционная архитектура, Гянджа, ремесло, историко-этнографическое исследование, кладбище Себзикар.

**Key words:** Azerbaijan, traditional architecture, Ganja, craftsmanship, historical-ethnographic research, Sebzikar grave-yard.

***Giriş***

Gəncə Səbzikar abidəsinin nümunəsində məhz yerli ənənələr əsasında təşəkkül tapmış və tədrici inkişaf sayəsində ümumdünya və eyni zamanda ümumislam mədəniyyətinin zənginləşməsində Gəncənin, ümumiyyətlə Azərbaycan xalqının çox yüksək, müstəsna rolunu aşağıdakı mühüm müddəalarla təsbit etmək və ilk dəfə elmi ictimaiyyətə çatdırmaq mümkündür:

Belə ki, Səbzikar qəbiristanlığında günümüzədək qorunub saxlanılmış və inşa edilmə tarixi XVIII-XIX əsrlərə təsadüf edən qüləvari formalı günbəzə sahib türbələrin tikilmə üslubu, inşaat keramikasının zərgər dəqiqliyi ilə tətbiq olunması. Bəhs olunan sənətkarlıq və memarlıq üsulunun geniş şəkildə istifadə edilməsi ilk orta əsrlər mərhələsi, xüsusilə də IX-XII əsrlərdə yüksək intişar tapmışdır. Amma Gəncə üçün səciyyəvi hesab olunan kərpiclə inşa üslubu daha qədim tarixi mərhələlərə aid maddi tapıntılarda üzə çıxarılmışdır [1, s. 87-89].

Yüzilliklər ərzində Gəncə üçün səciyyəvi sənətkarlıq və eyni zamanda memarlıq ənənəsi kimi dəyərləndirilən məşhur "Qızıl kəsişmə" kərpic inşası Səbzikar tarixi-memarlıq

abidəsinin çoxlu sayda məzarları və xüsusilə də məzarüstü abidələrində, türbə-sərdabələrində əyani surətdə mühafizə edilmişdir [2; 4, s. 120].

***Tədqiqatın mənbəyi və üsulları***

Gəncə sakinlərinin "Səviskar" adlandırdıqları və yerli sakinlərin qədim tarixi mərhələlərdən qaynaqlanan ləhcəsində adı məhz bu cür səslənən qəbiristanlığın ərazisində tarixən formalaşmış və müasir sahəsinə daxil olan məzar abidələrinin bənzərsiz sənətkarlıq və memarlıq xüsiyyətləri, həmçinin epitafik baxımdan diqqətəlayiq daş kitabə nümunələri Səbzikarın tarixi keçmişindən soraq verir. Eyni zamanda, burada olan müxtəlif məzarların tarixi nümunə, maddi mədəniyyət abidəsi kimi səciyyələndirilməsi zamanı bir deyil, bir neçə mühüm məsələyə diqqət yetirilməsi tələb olunur. Belə ki, Gəncə Səbzikar qəbiristanlığını digər çoxsaylı oxşar məkanlardan fərqləndirən ən ümdə xüsusiyyətlərindən biri burada yalnız qəbirlərin mövcud olması deyil, həm də ilk baxışdan sadəcə qəbir kimi adlandırılması təbii təsir bağışlayan, lakin elmi cəhətdən fərqli istilahlarla adlandırılması doğru hesab edilən təkrarsız maddi mədəniyyət nümunələrinin günümüzədək mühafizə olunmasıdır. Qeyd edilən qəbirlərlə yanaşı, Səbzikarda çoxsaylı qəbirüstü abidələrə də təsadüf edilir. Bəhs olunan qəbirüstü abidələr bir sıra cəhətləri baxımdan qəbir nümunələrindən seçilir və ayrıca sənətkarlıq, eyni zamanda memarlıq nümunələri olaraq təsnif edilməsi məqsədəuyğundur. Səbzikar qəbiristanlığında mövcud olan və çox mühüm tarixi mənbələr kimi dəyərləndirilən digər bir qism maddi mədəniyyət nümunələri isə məzarlar və məzarüstü abidələrdir.

Gəncə Səbzikar məzarlığının, bu müqəddəs məkanın - əsrlər boyu şəhər sakinlərinin dəyişməz ziyarətgahı olan ərazinin tərkibinə daxil olan və əsasən qəbiristanlığın tarixi baxımdan ən qədim məzarları hesab edilən nümunələri yalnız İslam - müsəlman mədəniyyəti ənənələrinin, o cümlədən qəbirüstü xatirə abidələrinin inşa edilmə xüsusiyyətlərini özündə ehtiva etməklə kifayətlənməmişdir. Bəhs olunan dəyərli epitafiya nümunələri – qədim qəbir və məzarlar üzərində təsvir, həmçinin yazı elementləri, eləcə də qəbir abidələrinin forma və hazırlanma texnologiyasında minilliklərə istinad edən, həmçinin Azərbaycan ərazisində islam dininin yayılmasından əvvəlki tarixi mərhələlərdə mövcud olan və inkişaf edən yerli, milli memarlıq, sənətkarlıq ənənələrinin tətbiq edildiyi nəzərdən qaçmamalıdır. Çünki Səbzikar kompleksi məzarlarının tədqiq olunan bu nisbətən daha qədim nümunələri aşkar surətdə özündə Gəncənin yerli Aran memarlıq məktəbinin çoxəsrlik dəyərli sənətkarlıq cəhətlərini əks etdirir [6, s. 51-59].

Bu ənənələr isə, öz növbəsində yalnız Səbzikar tarixi – memarlıq kompleksində dövrümüzə qədər qorunub saxlanılmış qəbir abidələrinin tarixi – xronoloji cəhətdən aid olduğu XVII – XVIII əsrlər mərhələsində mövcud olmuş və məzarların inşasında tətbiq olunan sənətkarlıq xüsusiyyətləri ilə məhdudlaşmır. Təqdirəlayiq haldır ki, bəhs edilən qəbir və qəbirüstü abidələrdə özünü büruzə verən milli sənətkarlıq, yerli memarlıq xüsusiyyətləri Azərbaycanın ənənəvi mədəniyyətinin vahid bir özülə, təmələ istinad edən, lakin ayrı – ayrı tarixi mərhələlərdə tədricən formalaşmış və inkişaf etmiş ən mütərəqqi cəhətlərindən qaynaqlanmışdır. Bu elmi mülahizəni bir neçə təkzibedilməz müddəa ilə təsbit etmək mümkündür:

Əvvəla, Azərbaycan ərazisində VII-VIII əsrlərdən etibarən islam dininin yayılması nəticəsində artıq bəhs olunan mərhələlərdən, xüsusilə də IX əsrdən başlayaraq Gəncə kimi möhtəşəm şəhər mədəniyyəti mərkəzlərində də, müvafiq olaraq müsəlman qaydasında yeni dəfnetmə adəti formalaşmağa başlamışdır [14, s. 65-68].

Bu tarixi prosesin qanunauyğun nəticəsi olaraq müsəlman dəfnetmə adəti ilə birlikdə yeni tip qəbir və xüsusilə də qəbirüstü xatirə abidələrinin də yayılması tədricən geniş miqyas almışdır [5, s. 120].

Qəbiristanlıqda sarkofaq – sərdabə, başdaşı və sinədaşı olan qəbir və qəbirüstü xatirə abidələri üçün mühüm hesab edilən səciyyəvi cəhətlərindən biri onların quruluşu ilə yanaşı, üzərində ərəb əlifbası ilə epitafiya, həmçinin oyma və qabartma üsulu ilə nəbati, eyni

zamanda həndəsi naxışların həkk edilməsi olmuşdur. Bu cür fərqli, xüsusilə də qabarıq olması ilə seçilən (daha doğrusu, burada relyefli, relyef səciyyəli təsvirlər, naxış elementləri nəzərdə tutulur) və bəhs edilən ilk orta əsrlər mərhələsi üçün yeni hesab edilən məzarların, qəbir və qəbirüstü xatirə abidələrinin islam dininin yayıldığı olduqca böyük bir coğrafi arealda geniş surətdə tətbiq olunmasına baxmayaraq, Azərbaycan ərazisində, xüsusilə də Gəncə kimi daim mədəniyyət mərkəzi olaraq mövqeyini qoruyan şəhərdə minilliklərə istinad edən ənənələr əsasında inkişaf etmiş dini və milli dəyərlər dəfn adətlərindən də yan keçməmişdir. Nəticədə isə çoxəsrlik sənətkarlıq, memarlıq ənənələrimiz VIII – IX əsrlərdən etibarən müsəlman dəfn adət və mərasimlərinin də zənginləşməsi, yeni xüsusiyyətlərin qədim ənənələrə istinad edilməsi şərti ilə qəbir abidələrinin inşası prosesinə sirayət etməsinə şərait yaratmışdır [9, s. 70-71].

Artıq Azərbaycanda islam dininin qəbul edildiyi və əhalinin əksər qisminin müsəlman olaraq ictimai həyatı və məişətində bu qaydalarla yaşadığı orta əsrlər mərhələsinin istər ilk orta əsrlər, istər inkişaf etmiş orta əsrlər, istərsə də son orta əsrlər dövrlərində əski türk ənənələrinin əsas mədəni, mənəvi, əxlaqi və o cümlədən də dini – ideoloji cəhətləri mühafizə edilirdi. Ardıcıl, fasiləsiz olaraq nəsildən – nəslə ötürülən ənənələrin, dəyərlərin unudulmaması sayəsində qədim tarixi köklərə əsaslanan milli, dini dəyərlərimiz yalnız feodal münasibətlərinin mövcud olduğu orta əsrlər mərhələsində deyil, yeni dövr mərhələsi – XIX əsr və ondan sonrakı dövrlərdə də yaşadıldı.

Gəncə Səbzikar kompleksinin nümunəsində əyani surətdə görmək mümkündür ki, Azərbaycanın həm ictimai, sosial, iqtisadi, həm də mədəni, mənəvi tərəqqisi baxımından intibah dövrü kimi səciyyələndirilən XI-XII əsrlərdə etibarən formalaşmış və son orta əsrlər mərhələsində də mövcudluğunu qorumuş bir sıra sənətkarlıq, memarlıq xüsusiyyətləri dini dəyərlərimiz, xüsusilə də dəfn adət və ənənələrimizlə bağlı bu sahələrə əhəmiyyətli şəkildə sirayət etmiş və qorunub saxlanılmışdır [14, s. 62-63].

***Nəticə***

Gəncə Səbzikar abidəsinin dünyada bənzəri olmayan qəbirüstü abidələri, öz növbəsində bir-biri ilə oxşar xüsusiyyətlərinin mövcud olmasına baxmayaraq, heç bir türbə yaxud türbə-sərdabə digərinin ayrı-ayrı sənətkarlıq cəhəti, memarlıq nöqteyi nəzərdən üslubunu təkrar etmir. Əksinə, qeyd olunan məzarüstü xatirə abidələri bir-birindən əsas inşa və milli mənsubiyyət məsələləri istisna edilməklə, digər əksər xüsusiyyətləri baxımından əsaslı surətdə fərqlənir. Baxmayaraq ki, tədqiq edilən qəbir abidələrinin inşa olunma tarixi arasındakı fərq dövr baxımından heç də böyük deyildir. Hətta əksər məzarüstü xatirə abidələri, xüsusilə də şəcərə, nəsil sərdabələri eyni tarixi mərhələrdə inşa edilməsi ilə diqqət cəlb edir. Nümunə olaraq XIX əsrin ikinci yarısı, həmçinin XIX əsrin sonu və XX əsrin ilk onilliklərinə aid türbələr və türbə-sərdabələr göstərilə bilər. Gəncə şəhərinin son orta əsrlər (XVIII əsrin əvvəlləri –XIX əsrə qədərki mərhələ), yeni dövr - XIX əsr və XX əsrin əvvəllərinə qədər olan mərhələ və müasir dövrlərinə aid fərqli, bununla yanaşı, təməli çox əsrlik milli ənənələrə istinad edən ümumi oxşar xüsusiyyətlərə malik olan müxtəlif görkəmli şəxsiyyətlər, ayrı-ayrı tanınmış şəcərə və nəsillərlə bərabər, sıravi insanlara məxsus olan qəbirləri, məzarüstü xatirə abidələrinin tarixi-etnoqrafik, eləcə də memarlıq və sənətşünaslıq nöqteyi-nəzərdən təfərrüatlı elmi tədqiqi yüzlərlə yerüstü maddi mədəniyyət nümunələri ilə bərabər, çox zəngin tarixi nümunələrlə zəngin olan yeraltı Gəncənin öyrənilməsi baxımından da əhəmiyyətlidir [5, s. 120].

Qeyd olunan mənbəşünaslıq əhəmiyyətinə malik xüsusiyyətlər bir sıra mühüm maddi nümunələrdə özünü büruzə verə bilmişdir. Əvvəla, dəyərli inşaat və memarlıq üsulu kimi qiymətləndirilən tağların inşasında müşahidə olunan sənətkarlıq elementləri, bundan əlavə, Gəncə şəhərində minilliklərlə tarixə, olduqca zəngin sənət ənənələrinə sahib olan dulusçuluq sahəsinin ayrı-ayrı növlərini təmsil edən nümunələr üçün səciyyəvi hesab edilən cəhətlərin mövcudluğu və s. Burada bir məqama xüsusi əhəmiyyət verilməsi zəruridir ki, Gəncə

şəhərində urbanizasiya – şəhərsalma prosesinin ən vacib göstəricilərindən hesab olunan dulusçuluğun mayolika, inşaat dulusçuluğu (inşaat keramikası), kaşıkarlıq, su və kanalizasiya sistemləri borularının hazırlanması, çini qablar istehsalı, eləcədə məişət, təsərrüfat təyinatlı saxsı qabların, gildən hazırlanan məmulatların istehsalı ilə bağlı bir çox sahələri təşəkkül tapmış və əsrlərlə inkişaf etmişdir [8, s. 145-147; 13, s. 342-344]. Yeraltı Gəncənin bəhs olunan təkrarsız sənətkarlıq nümunələri ilə zəngin hissələrinin tədqiqində məhz bu nöqteyi-nəzərdən dulusçuluq sənəti və onun müxtəlif sahələrinin öyrənilməsi mənbə olaraq əhəmiyyət kəsb edir. Maddi mədəniyyət nümunələrinin inşasında Gəncə üçün səciyyəvi hesab olunan inşaat materialı kimi (yerli tikinti materialı kimi) bişmiş qırmızı kərpicdən istifadə edilməsi xüsusilə maraq doğurur. Orta əsrlər mərhələsindən etibarən inşa olunmuş və ikimərtəbəli fayton yollarının mövcudluğu ilə fərqlənən yeraltı Gəncə yollarında da Səbzikar məzarlığındakı bir çox qəbirüstü xatirə abidələrinin, eləcə də qəbirlərin hazırlanmasında istifadə edilən materialları yerli xammal ehtiyatlarına əsaslanmış, eyni zamanda müxtəlif kimyəvi maddələrin, müvafiq qatqı və əlavələrin vasitəsilə davamlı birləşmələrə çevrilmişdir [6, s. 18-23].

Bundan əlavə, Səbzikar məzarlığında rast gəlinən çoxsayılı abidələrin də yeraltı Gəncədən aşkar olunmuş ayrı-ayrı maddi mədəniyyət nümunələri ilə qarşılıqlı elmi-müqayisəli təhlilinin aparılması nəticəsində həm bəhs edilən abidələrin dəqiq xronoloji dövrləşdirilməsi həyata keçirilə bilər, eyni zamanda Səbzikarkardakı məzarüstü xatirə abidələrinin üzərində əks etdirilmiş müxtəlif aşkar və kosmoqonik, tarixi əhəmiyyətə malik, ilk baxışda tam açıqlanması mümkün olmayan dərin məzmunlu təsvirlərin izahının mümkünlüyü üzə çıxmış olar [7, s. 11].

Gəncə Səbzikar qəbiristanlığının çoxəsrlik tarixə malik məzar abidələrinin elmi əsaslarla tədqiqi sayəsində şəhərdə multikultural dəyərlərin, tolerantlıq ənənələrinin yeni mənbələrə istinadən daha müfəssəl öyrənilməsi mümkündür.

***Ədəbiyyat***

1.Azərbaycan etnoqrafiyası: 3 cilddə, I cild. Bakı: Şərq-Qərb, 2007, 544 s.

2.Azərbaycan Respublikası Milli Arxiv İdarəsi Dövlət Arxivinin Gəncə şəhər filialı. F. 20, s.

3.Cəfərsoylu İ.Y. İki Gəncə. “Elm və həyat” jurnalı. № 8, Bakı, Elm nəşriyyatı, 1986.

4.Гасанов Э.Л. Об изучении историко-религиозных памятников Гянджи как хранителей толерантных ценностей и мультикультурализма. Gənc tədqiqatçıların III Respublika elmi-praktik konfransının materialları. Bakı, 13 mart, 2020, Azərbaycan universiteti, s. 119-121.

5.Əhmədov F.M. Gəncənin tarix yaddaşı. Gəncə: Elm, 2007, 246 s.

Hasanov E.L. Multidisciplinary basis of historical-ethnographic research of craftsmanship traditions in Ganja city. Warsaw: (Poland), Sp. z.o.o. “iScience”, 2018, 100 p. ISBN 978-83

6.Hasanov S.L., Hasanov E.L. Applied features of comparative technical, sociological investigation of historical and contemporary heritage of Azerbaijan. International Scientific Journal Theoretical & Applied Science, 2018. Issue 1, vol. 57, part 1. p. 9-16.

7.Hasanov E.L. Nizami Ganjavi 880: heritage of Ganja based on architectural and craftsmanship features of Sebzikar graveyard. ISJ Theoretical & Applied Science, Philadelphia (USA), 2021. Issue 01, vol. 93, part 2, p. 144-150. Doi: https://dx.doi.org/10.15863/TAS.2021.01.93.25

8.Həsənov E.L. Gəncə İmamzadə türbəsi. Bakı: Elm və təhsil, 2012, 268 s.

Hüseynova S.B. Gəncə şəhəri haqqında bəzi etnoqrafik qeydlər (XX əsrin əvvəlləri). Kirovabadın maddi, mədəni və ictimai həyatına həsr edilmiş II elmi konfransın materialları. Bakı, 1987, s. 37.

9.Mustafayev A.N. Azərbaycanda sənətkarlıq. Bakı: Altay, 2001. 232 s.

10.Nemət M.S. Azərbaycanda pirlər. Bakı: Azərnəşr, 1992, 104 s.

11.Poulmarc'h M., Laneri N., Hasanov, E.L. Innovative approach to the research of ethnographic-archaeological heritage in Ganja based on materials of kurgans. International Scientific Journal Theoretical & Applied Science, 2019. Issue 09, vol. 77, part 4. p. 341-345.
12.Smith W., Hasanov E.L. (2013). Importance of handicraft traditions in investigation of history of urban culture in Ganja. International Scientific Journal Theoretical & Applied Science, 2013. Issue 11, vol., 7, p. 61-66. doi: http://dx.doi.org/10.15863/TAS.2013.11.7.10
The dawn of Art. Leningrad: Aurora Art Publishers, 1974, 196 p.

## ЗНАЧЕНИЕ ПАМЯТНИКА СЕБЗИКАР В ИССЛЕДОВАНИИ ТРАДИЦИОННЫХ РЕМЕСЛЕННЫХ И АРХИТЕКТУРНЫХ СТИЛЕЙ В ГЯНДЖЕ

***Гасанов Эльнур Лятиф оглу***

***Резюме***

В научной работе рассматривается значение кладбища Себзикар как источника в изучении местных ремесленных и архитектурных традиций в Гяндже с историко-этнографической точки зрения. В статье раскрывается значение изучения древних надгробий и надгробных памятников в исследовании таких традиционных ремесел как каменотесное дело, каменообработка, каллиграфия, гончарное дело, а также характерных особенностей строительства, местных архитектурных стилей в этом древнем городе в период позднего средневековья на основе изучения многочисленных научных и исторических источников, архивных документов.

## SIGNIFICANCE OF SEBZIKAR MONUMENT IN RESEARCH OF TRADITIONAL HANDICRAFT AND ARCHITECTURAL STYLES IN GANJA

***Hasanov Elnur Latif oglu***

***Summary***

In this scientific work has been investigated the significance of Sebzikar grave-yard as a source in the study of local handicraft and architectural traditions in Ganja from the historical and ethnographic point of view. The article reveals the importance of studying ancient gravestones and gravestones in the study of such traditional crafts as masonry, stone processing, calligraphy, pottery, as well as the characteristic features of construction, local architectural styles in this ancient city during the late Middle Ages, based on the study of numerous scientific and historical sources, also various archival documents.

***Rəyçi: t.e.d., prof. Nərgiz Quliyeva.***
***AMEA Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutunun 08 sentyabr 2021-ci il tarixli 09 saylı iclas protokolu.***
***Daxil olduğu tarix 06 oktyabr 2021-ci il***

**UOT:94.**

## CEYMS KARTER VƏ ABŞ -IN XARİCİ SİYASƏTİ

***Dosent Hüseyn Bəxtiyarlı***
***Gəncə Dövlət Universiteti***
***Huseyn.bextiyarli@bk.ru***

**Xülasə:** *Məqalədə ABŞ-ın 39-cu prezidenti olan Ceyms Karterin fəaliyyəti araşadırılır. Qeyd edilir ki, prezident seçilənədək O, müxtəlif vəzifələr tutmuş, ABŞ cəmiyyətində yetərincə tanınmışdır. Prezident vəzifəsinin icrasına başladıqdan sonra çox istiqamətli xarici siyasət xətti müəyyənləşdirmiş və həyata keçirmişdir. Karter həm Qərb, həm də Şərq yarımkürəsində aktiv siyasət yeritmiş və bununla ABŞ-ın ənənəvi beynəlxalq nüfuzunu qoruyub saxlamışdır.*